

Respublikamızda öz işini ürəkdən sevən, tutduğu vəzifəyə məsuliyyətlə yanaşan, ona göstərilən etimadı layaqətlə doğruldan rəhbər kadrlarımız az deyil. Amma nə danmalı, Mina xanım mükəmməl savadı, yüksək intellekti, məntiqli söhbət və davranışı, zəhmətsevərliyi, sadəliyi, səmimiliyi, xeyirxahlığı, təvazökarlığı ilə onların hamısından seçilir.

# Etimadı doğruldanda

Təbii ki, söhbət Gəncə Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi, Respublikanın əməkdar mədəniyyət işçisi Mina xanım Məlikovadan gedir.

Məlumdur ki, Gəncə yalnız öz böyüklüyünə görə yox, həm də spesifik xüsusiyyətlərinə, özünəməxsus ənənələrinə görə digər bölgələrdən fərqlənir. Odur ki, günü-gündən inkişaf edərək daha da böyüyən bu qaynar şəhərdə nüfuz qazanmaq, yüksək vəzifə tutmaq, şərəfli və məsuliyyətli olduğu qədər də maraqlı və ağır olan bu işin öhdəsindən gəlmək hər kəsin işi deyil. Həmsöhbətim isə bu mənada çoxlarına nümunə ola bilər.

Məlikova Mina Məmmədəli qızı Gəncə şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1970-ci ildə Gəncə 4 saylı orta məktəbi bitirərək ilk Azərbaycan Bitki Mühafizəsi İnstitutunda dəftərxana müdiri vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

1971-ci ildə Gəncə şəhər Q.Hüseynli adına Musiqi Texnikumunun xor dirijorluğu fakültəsinə qəbul olunmuş, 1975-ci ildə oranı bitirmişdir.

1976-cı ildən 1977-ci ilin fevralınadək 2 saylı Uşaq Musiqi Məktəbində, Mirzə Ələkbər Sabir adına 5 saylı orta ümumtəhsil məktəbində, 1977-ci ilin fevralından 1989-cu ilə qədər Məhsəti Gəncəvi adına Pedaqoji Texnikumda musiqi müəllimi işləmişdir. O, 5 saylı orta ümumtəhsil məktəbində işlədiyi müddətdə ictimai əsaslarla uşaq folklor xorunun rəhbəri və dirijoru olmuşdur. Məhsəti Gəncəvi adına Pedaqoji Texnikumda müəllimlər xorunun, 5 saylı orta ümumtəhsil məktəbində isə uşaq folklor xorunun rəhbəri və dirijoru kimi şəhərdə keçirilən bütün Dövlət tədbirlərində konsertlər vermişdir. Bu konsertlər şəhər rəhbərliyi və əhali tərəfindən rəğbətlə qarşılanmışdır.

Mina Məlikova Pedaqoji Texnikumda işlədiyi müddətdə orada müəllimlərdən ibarət kamera xoru yaratmış, şəhərdə keçirilən konsertlərdə bu kamera xoru müvəffəqiyyətlə çıxış etmişdir.

1979, 1980, 1981-ci illərdə ümummilli lider Heydər Əliyevin Gəncəyə səfərləri zamanı, eləcə də Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) 50 illiyi ilə əlaqədar Gəncə şəhərində Birləşmiş xorun dirijoru kimi konsertlərdə çıxış etmişdir. Məlikova Mina Məmmədəli qızı respublikamızın paytaxtı Bakı şəhərində Heydər Əliyev adına Sarayda dünya şöhrətli maestro Niyazinin rəhbərliyi ilə Gəncə şəhərinin Birləşmiş xorunun çıxışını təşkil etmişdir.

Mina Məlikova 1976-cı ildə Moskva Dövlət Pedaqoji İnstitutunun musiqi fakültəsinə daxil olmuş, 1980-ci ildə oranı musiqi və nəğmə ixtisası üzrə bitirmişdir. O, 1989-cu ilin dekabr ayında Mədəniyyət və İncəsənət İşçilərinin Gəncə şəhər Həmkarlar İttifaqı Komitəsinə sədr seçilmişdir.

O, həmkarlar ittifaqının sədri kimi şəhərdə yaşayıb-yaradan hər bir mədəniyyət və incəsənət işçisinə qayğı ilə yanaşmış, onların problemlərinin həlli üçün əlindən gələni əsirgəməmiş, onlar üçün sanatoriya-kurortlara putyovkaların verilməsini təmin etmişdir.

Mina Məlikova 1995-ci ildən Gəncə Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi vəzifəsində çalışır.

Bu illər ərzində Mina xanım şəhərin mədəniyyəti inkişafında, onun Azərbaycan və dünya mədəniyyətində öz layiqli yerini tutması üçün bütün qüvvə və bacarığını səfərbər etmiş, keçirilən bütün mədəni-kütləvi tədbirlərin əsas təşkilatçısı və iştirakçısı olmuşdur.

Mina Məlikova rəhbər vəzifəsində işlədiyi uzun illər ərzində onun idarəçilik üsulu Mədəniyyət və Turizm Nazirliyi, şəhər rəhbərliyi tərəfindən birmənalı şəkildə müsbət qarşılanmışdır.

O, idarənin tabeliyində olan müəssisə və təşkilatların hər birində şəhər əhalisinin asudə vaxtının səmərəli təşkili və mədəni xidmət səviyyəsinin daima yüksəldilməsi üçün işini günün tələbləri səviyyəsində qurur.

Mina Məlikova 25 sentyabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür.

Mina xanım həm də gözəl ailə başçısıdır. İki övladı, iki nəvəsi var.

**Elmira HƏSƏNQIZI**